Mediaxülasə

# Nobelçi "Vegeterian" və "Anlamağın ağır yükü"

## *Akademik İsa Həbibbəylinin ədəbi şərhi Rusiya mətbuatında*

**AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin 2024-cü ildə ədəbiyyat üzrə Nobel mükafatına layiq görülmüş Cənubi Koreya yazıçısı Han Kangın "Vegeterian" romanı haqqında yazdığı "Anlamağın ağır yükü" adlı məqaləsi Rusiyanın nüfuzlu ədəbi həftəliyi "Literaturnaya qazeta"nın 2–8 aprel tarixli sayında çap olunub.**

Yazıda Koreya yazıçısının yaradıcılığı Azərbaycan ədəbiyyatı ilə müqayisədə təhlil olunub. Akademik "Vegeterian" romanından yeni dövr dünya ədəbiyyatının ədəbi hadisələrindən biri kimi bəhs edib.


22 ЛИТЕРАТУРА

Тяжкое бремя понимания



Məqalədə İsa Həbibbəyli "anlamaq dərdi" anlayışının Azərbaycan ədəbiyyatı və ədəbiyyatşünaslığında önəmli əxlaqi-estetik mövzu olaraq geniş araşdırıldığından çıxış edərək roman müəllifinin də insanlar arasında münasibətlərin yaxşılaşdırılması zəruriliyini oxuculara yüksək bədiiliklə çatdırdığını vurğulayır. Azərbaycanlı akademik insanın təbiətə münasibətinin koreyalı yazıçının əsərində çox dəqiqliklə nəzərdən keçirildiyini də yüksək dəyərləndirir.

Görkəmli Azərbaycan ədəbiyyatşünasının Rusiya mətbuatında işıq üzü görən məqaləsi ölkəmizdə dünya ədəbi prosesinin həssaslıqla izlənildiyinin ifadəsi olaraq, "Vegeterian" romanının ideya və sənətkarlıq parametrlərinin məharətlə öyrənildiyini, bəşəri önəmli ədəbi örnəyin akademik qavrayışla dəyərləndirildiyini əks etdirir. Akademik İsa Həbibbəyli bundan əvvəl eyni mövzuda duyğu-düşüncələrini oxuculara anadilli "Ədəbiyyat qəzeti"ndə "Anlamaq dərdinin mahiyyəti" adı ilə çatdırıb.

Xatırladaq ki, 57 yaşlı Han Kangın 2016-cı ildə nəşr olunmuş – ət yeməkdən imtina edən, əqli cəhətdən xəstə olan və ailəsinin dönüklüyü ilə qarşılaşan qadının həyatından bəhs edən "Vegeterian" poetik romanı həmin il beynəlxalq "Man Booker" mükafatına layiq görülüb. İngilis dilinə tərcümə olunmuş ilk Koreya nəsr əsəri bundan sonra dünyada geniş populyarlıq qazanıb və bu, Nobel Komitəsinin qərarına da təsir göstərib.

"Vegeterian" romanı ötən il "Tarixin yaralarına qarşı çıxan və insan həyatının zərifliyini açıb göstərən dolğun mənsur əsər" kimi ədəbiyyat nominasiyasında Nobel mükafatına layiq görülüb. Han Kang ədəbiyyat üzrə Nobel mükafatı almış ilk koreyalı və dördüncü asiyalı, ilk qadın asiyalı yazıçı, ümumiyyətlə, ikinci koreyalı Nobel mükafatçısıdır.

*Tahir AYDINOĞLU,*
*Namiq QƏDİMOĞLU*
*XQ*